AZƏRBAYCAN RESPUBLIKASI

MƏDƏNIYYƏT VƏ TURIZM NAZIRLIYI

M.F.AXUNDOV adına

AZƏRBAYCAN MILLI KITABXANASI



XALQ ŞAIRI SƏMƏD VURĞUNUN ANADAN OLMASININ 100 ILLIK YUBILEYI

BAKI – 2006

AZƏRBAYCAN RESPUBLIKASI

MƏDƏNIYYƏT VƏ TURIZM NAZIRLIYI

M.F.AXUNDOV adına

AZƏRBAYCAN MILLI KITABXANASI

KITABXANA SIYASƏTI VƏ METODIK
RƏHBƏRLIK ŞÖBƏSI

Xalq şairi Səməd Vurğunun 100 illik yubileyinə həsr olunmuşdur

XALQ ŞAIRI SƏMƏD VURĞUNUN ANADAN OLMASININ 100 ILLIK YUBILEYI

METODIK VƏSAIT

Respublikanın kütləvi, uşaq ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr

Mədəniyyət və Turizm Nazirliyi

nəzdində Koordinasiya Şurasının

2006-ci il 21 iyun tarixli 2 nömrəli

protokolu ilə çapa tövsiyə olunub

BAKI – 2006

Tərtib edənlər: Bayramov Dəmir Əmrah oğlu, Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinin müdiri;

Qarayeva Yeganə Əlif qızı, C.Cabbarlı adına Respublika gənclər kitabxanasının EMS-nin müdiri;

Könül Tağı qızı Səmədzadə, F.Köçərli adına Respublika uşaq kitabxanasının Elmi metodika şöbəsinin baş kitabxanaçısı.

Redaktolarr: Cadıqov Tahir Köçəri oğlu, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının direktoru;

Quliyeva Fizurə Müseyib qızı, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru;

Alışova Nailə Əhəd qızı, Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinin aparıcı elmi işçisi;

Rəyçi: Məmmədov Fazil Həsənbala oğlu,

Elmi işlər üzrə direktor müavini, ped. elm. namizədi

Xalq şairi Səməd Vurğunun anadan olmasının 100 illik yubileyi: Metodik vəsait /Tərt. ed. Dəmir Bayramov; Yeganə Qarayeva; Könül Səmədzadə; Red., Tahir Sadıqov, Füzurə Quliyeva, Nailə Alışova - B., 2006.- 59 s.

© M.F.Axundov adına Milli Kitabxana, 2006

ÖN SÖZ

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən.
Anam, doğma vətənimsən!
Ayrılarmı könül candan?

Azərbaycan, Azərbaycan!

Səməd Vurğun,
Şairin «Azərbaycan» şerindən

Bu gün iftixar hissi ilə deməliyik ki. S.Vurğun Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ölməz sənətkarlardandır. El nəğməkarı özünü «ağ günlər şairi», «ellər oğlu» adlandırır, qədim tarixə, mədəniyyətə malik bir xalqın övladı olmağı ilə böyük qürur duyurdu. Elin sözlü-söhbətli, mənəvi zənginliyi coşğun şairin şerlərində xüsusi bir ilhamla təsvir və tərənnüm olunur. Bütün varlığı ilə el-obaya bağlı olan, «qanında çayların ahəngi axan», «hər dastanında bülbüllər ötüşən» şairin mənalı həyatı, zəngin yaradıcılığı və geniş ictimai fəaliyyəti xalqa, Vətənə sədaqətlə xidmət etməyin gözəl nümunəsidir.

S.Vurğun Azərbaycan poeziyasının yaradıcılarından biri kimi şərəfli bir mövqe tutur. Bu poeziyanın bayrağını daim yüksəklərə qaldıran şairin əsərlərində Odlar yurdunun zəngin təbiəti, füsunkar gözəllikləri, xalqımızın keçmişi və bugünkü firavan güzəranı özünün bədii əksini tapır. Məhz buna görə, S.Vurğundan söhbət açmaq – günəşli Azərbaycandan, onun çoxəsrlik tarixindən, əməksevər və qəhrəman xalqından danışmaq deməkdir. Xüsusi qeyd etmək lazımdır ki, S.Vurğun yaradıcılığı milli olduğu qədər, də beynəlmiləl xarakterə malikdir. Şair zamanın oğlu, xalqın övladı idi. O, mənsub olduğu xalqın taleyini başqa xalqların taleyindən təcrid etmir, əksinə, xalqımıza xas olan ən ali keyfiyyətləri tərənnüm etməyi öz yaradıcılığının mənası hesab edirdi. Məhz bu keyfiyyətlərə görə şairin şöhrəti planeti gəzib dolaşırdı.

Azərbaycan poeziyasının yaranması və inkişafı Səməd Vurğunun adı ilə qırılmaz tellərlə bağlıdır. Iyirminci illərin ikinci yarısından yaradıcılığa başlayan Səməd Vurğun ədəbi tənqidin, geniş oxucu kütləsinin diqqətini cəlb etmiş, yeni yaranmaqda olan Azərbaycan şerinin bayraqdarlarından biri olmuşdur.

Cəmi 50 bahar yaşayan Səməd Vurğun Azərbaycanın ilk Xalq şairi adına layiq görülmüş, ona göstərilən el məhəbbəti şairin nüfuzunu daha da artırmışdır.

Diqqətə çatdırmaq lazımdır ki, 2006-cı ilin mart ayında unudulmaz şairimizin anadan olmasının 100 ili tamam olur. Biz bu yazı vasitəsilə kitabxanalara tövsiyə edirik ki, bu gündən başlayaraq, şairin yubileyi qarşısında rəngarəng tədbirlər keçirsinlər və ədəbi ictimaiyyəti həmin tədbirlərə geniş cəlb etsinlər.

Azərbaycanın ilk Xalq şairi Səməd Vurğunun 100 illik yubileyinin qeyd olunması münasibətilə Azərbaycan Respublikası Prezidenti Ilham Əliyev Cənabları Sərəncam imzalamışdır. Sərəncamda göstərilir ki, Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq və

təkrarsız səhifələrindən birini təşkil edir. Müasir Azərbaycan dilinin və ədəbiyyatının zənginləşməsində böyük rol oynamış sənətkarın bədii irsi mədəniyyətimizin inkişafında bütövlükdə yeni mərhələ olmuşdur. Bu mühüm dövlət sənədində buna diqqət yetirilir ki, Azərbaycan Milli Elmlər Akademiyasının ilk akademiklərindən biri olan Səməd Vurğunun görkəmli ictimai-siyasi xadim kimi də xidmətləri müstəsna əhəmiyyət kəsb edir.

Bunu da qeyd edək ki, Sərəncam «Azərbaycan» qəzetinin 2006-cı il 7 fevral tarixli nömrəsində dərc olunmuşdur.

AZƏRBAYCANIN XALQ ŞAIRI SƏMƏD VURĞUN
(*Qısa bioqrafik məlumat*)

Səməd Vurğun Yusif oğlu Vəkilov 1906-cı il martın 21-də Qazax rayonunun Qırax Salahlı kəndində anadan olmuş və ibtidai təhsilini həmin kənddə almışdır. 1918-ci ildə Səməd Vurğunun ailəsi Qazax şəhərinə köçmüş və burada o, Müəllimlər Seminariyasına daxil olmuşdur. Səməd Vurğun 1924-cü ildə Qazax Pedaqoji texnikumunu bitirmiş və 1929-cu ilədək Qazax, Quba rayonlarında və Gəncə şəhər məktəblərində muəllimlik etmişdir. O, bu illərdə ədəbiyyatla çox maraqlanmış və bir sıra xırda şerlər yazmışdır. Unudulmaz şair özünün ilk şerlərini Azərbaycan proletar yazıçıları cəmiyyəti Gəncə şöbəsinin orqanı olan «Ilk addımlar» jurnalında, yerli qəzetlərdə və habelə mərkəzi mətbuatda çap etdirirdi. Diqqətə çatdırmaq lazımdır ki, Azərbaycan xalqının ədəbi və mədəni ənənələrinə yüksək qiymət verən Səməd Vurğun, həmin ənənələrin mütərəqqi cəhətlərini öz yaradıcılığında həmişə inkişaf etdirmişdir. Səməd Vurğun 1929-cu ildə təhsilini davam etdirmək üçün Moskva Dövlət Universitetinə daxil olur. 1930-cu ildə Səməd Vurğunun «Şairin andı» adlı ilk şerlər kitabı çapdan buraxılmışdır. 1931-ci ildə şair Moskvadan Bakıya qayıdıb Azərbaycan Ali Pedaqoji Institutunun aspiranturasına daxil olur. 1932-ci ildə böyük şairin «Fanar» adlı 2-ci şerlər kitabı işıq üzü görür. Xüsusi qeyd etmək lazımdır ki, «Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında» ÜIK (b)P MK-nın 1932-ci il 23 aprel tarixli qərarından sonra Səməd Vurğunun yaradıcılığında ciddi dönüş yaranır. O, bu qərardan sonra «Pambıqçılar», «Raport» şerlərini, «Komsomol poeması» və «Ölüm kürsüsü» poemalarını həvəslə qələmə alımışdır. 1934-cü ildə şairin «Könül dəftəri» adlı şerlər kitabı çapdan buraxılmışdır. Həmin ildə Səməd Vurğun Azərbaycan Sovet Yazıçıları Ittifaqının məsul katibi seçilmişdir.

1934-cü ildə Səməd Vurğun keçmiş SSRI Yazıçılarının Birinci qurultayında Azərbaycan yazıçılarının nümayəndəsi sifəti ilə iştirak edir və qurultayda SSRI Yazıçıları Ittifaqının Idarə Heyətinə üzv seçilir. 1935-ci ildə Səməd Vurğun ZSFSR Mərkəzi Icraiyyə Komitəsinin üzvü seçilmişdir. O, bu ildə

«Şerlər» adlı kitabını nəşr etdirmişdir. Həmin kitabda şairin «Kənd səhəri», «Ölüm kürsüsü», «Bahar», «A, köhlən atım» kimi bir sıra yeni poema və şerləri dərc olunmuşdur.

Səməd Vurğun 1935-36-cı illərdə böyük rus şairi A.S.Puşkinin «Yevgeni Onegin» adlı mənzum poemasını Azərbaycan dilinə tərcümə edir. Yeri gəlmişkən deyək ki, uğurlu tərcüməsinə görə şair Ümumittifaq Puşkin Komitəsi tərəfindən «Pişkin medalı» ilə təltif olunur. 1936-37-ci illərdə isə, o, böyük gürcü şairi Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» poemasının bir hissəsini Azərbaycan dilinə tərcümə etmiş və bu münasibətlə Gürcüstan Mərkəzi Icraiyyə Komitəsinin «Fəxri Fərmanı» ilə mükafatlandırılmışdır.

Səməd Vurğun həm də görkəmli bir dramaturq kimi tanınmışdır. Onun şerlə yazılmış və 1938-ci ildə tamaşaya qoyulmuş «Vaqif» adlı birinci dram əsəri tez bir zamanda xalq arasında böyük şöhrət qazanmış və respublikanın mədəni həyatında böyük bir hadisə olmuşdur. Həmin pyesdə şair bütün həyatını və yaradıcılığını doğma xalqına həsr edən vətənpərvər şair Vaqifin ünüdülmaz surətini yaratmışdır. Əsər rus dilinə də tərcümə edilmiş və tamaşaya qoyulmuşdur. Bu pyesə görə şairə Ikinci dərəcəli Stalin mükafatı Laureatı adı verilmişdir.

1938-ci ildə Səməd Vurğun Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir.

1939-cu ildə Səməd Vurğun, Azərbaycan xalqının sədaqətli oğlu Xanlar Səfərəliyevin inqilabi fəaliyyətindən bəhs edən «Xanlar» dramını yazmışdır. Bunu da qeyd edək ki, həmin ildə şairin «Azad ilham» adlı kitabı da çapdan buraxılmışdır.

1940-cı ildən başlayaraq Səməd Vurğun Azərbaycanın böyük şairi Nizami Gəncəvinin «Leyli və Məcnun» poemasını Azərbaycan dilinə tərcümə edir. Şair 1941-ci ildə «Fərhad və Şirin» pyesini yazmış və 1942-ci ildə bu pyesə görə Səməd Vurğuna ikinci dəfə Stalin mükafatı laureatı adı verilmişdir. 1942-ci ildə Səməd Vurğunun Böyük Vətən Müharibəsindən əvvəl və müharibə illərində yazdığı bir sıra antifaşist şerləri «Səadət uğrunda» adı ilə ayrıca kitab şəklində nəşr olunmuşdur. Qeyd etmək lazımdır ki, Səməd Vurğun bədii yaradıcılığından başqa, öz məqalə, məruzə və çıxışları ilə Azərbaycan ədəbiyyatının və elminin inkişafına böyük qüvvə sərf etmişdir.

Bədii ədəbiyyatın inkişafındakı roluna və geniş səmərəli ictimai fəaliyyətlərinə görə hökümət Səməd Vurğuna 1945-ci ildə Əməkdar Incəsənət Xadimi adı vermişdir. Həmin ildə şairin «Ayın əfsanəsi» (Aybəniz) poeması çap olunmuşdur.

1946-cı ildə Səməd Vurğun SSRI Ali Sovetinə deputat seçilir və həmin il SSRI Ali Soveti nümayəndəliyinin üzvü kimi Ingiltərəyə gedir.

1947-ci ildə şairin «Istiqbal təranəsi» adlı kitabı nəşr olunub, geniş ədəbi ictimaiyyətə çatdırılmışdır.

1948-ci ilin avqustunda böyük şöhrət və hünər sahibi Səməd Vurğun Polşanın Vrotslav şəhərində sülhü müdafiə edən mədəniyyət xadimlərinin

Umumdünya Konqrensində çıxış etmişdir və həmin tədbirdən aldığı təəssüratla «Zəncinin arzuları» poemasını qələmə almışdır.

Səməd Vurğunun 1949-cu ildə «Muğan», 1950-ci ildə «Dram əsərləri» və «Mənim andım», 1951-ci ildə «Dünyanın xəritəsi», 1954-cü ildə «Zamanın bayraqdarı» kitabları geniş oxucu kütləsinə təqdim olunmuşdur. 1954-1955-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatı böyük şairin Üçcildlik seçilmiş əsərlərini nəşr edib, geniş ədəbi ictimaiyyətə çatdırmışdır. Şairin əsərləri rus, gürcü, tacik, Ukrayna, özbək, çin, ingilis, alman, polyak, bolqar və s. dillərə tərcümə olunmuşdur.

1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası yaradılarkən Səməd Vurğun onun həqiqi üzvü seçilmiş və 1954-cü ildən etibarən akademiyanın Prezident Müavini vəzifəsində fəaliyyət göstərmişdir.

1954-cü ilin dekabrında Səməd Vurğun keçmiş sovet yazıçılarının II Ümumittifaq qurultayında «Sovet poeziyası» mövzusunda əlavə məruzə etmişdir.

Səməd Vurğun eyni zamanda görkəmli dövlət xadimi və ictimai xadim idi. O, SSRI Ali Sovetinin ikinci, üçüncü, və dördüncü çağırışlarının deputatı olmuş, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü seçilmişdir.

S.Vurğun Azərbaycan Dövlət Universitetinin elmi şurasında Fəxri Filoloji Elmləri Doktoru adına layiq görülmüşdür.

Unudulmaz şairimiz ədəbiyyat və incəsənət sahəsindəki görkəmli xidmətlərinə görə iki Lenin ordeni ilə, iki Qırmızı Əmək Bayrağı ordeni ilə, «Şərəf nişanı» ordeni və medallarla təltif edilmişdir. Ona Azərbaycanın ilk Xalq Şairi fəxri adı verilmişdir.

1956-cı il mayın 12-də Azərbaycanın Xalq Şairi Səməd Vurğunun anadan olmasının 50 illik yubileyi təntənəli sürətdə qeyd edilmişdir.

Səməd Vurğun 1956-cı il mayın 27-də vəfat etmişdir. O, Bakı şəhərində Fəxri xiyabanda dəfn olunmuşdur.

GÖRKƏMLI ŞAIR VƏ YAZIÇILAR SƏMƏD VURĞUN HAQQINDA

Səməd Vurğun yalnız poeziya aləmində deyil, ümumən ədəbiyyatımızın ön cəbhəsində getmiş və ölməz bədii əsərləri, məruzə və nitqləri, məqalə və çıxışları ilə ədəbiyyatımızı və ictimai fikrimizi istiqamətləndirmişdir. Yalnız müasir mövzuda deyil, tarixi mövzuda yazdığı əsərlərində də həmişə müasir olmuş, tarixi mövzuları da zamanın tələbləri baxımında işləmiş, bunlara bugünün gözü ilə baxmağı bacarmışdır.

Bəxtiyar Vahabzadə,
Xalq şairi

Səməd əla oxumaqla bərabər, çox nadinc, sərt, hər şeyi üzə deyən, bəzən müəllimlərə söz qaytaran, üsyankar

xoşxasiyyətli şagird idi. Lakin bununla bərabər, nədənsə müəllimlər onu sevirdilər, başını sıgallayır, şirin dilə tuturdular. Sanki bu kiçik bədəndəki fırtınanı ram etməyə, cilovlamağa çalışırlar. Ən çətin vəziyyətdən çıxmağa söz tapması və cürəti Səmədi həm müəllimlərinə, həm də yoldaşlarına sevdirirdi.

Mehdixan Vəkilov
Əməkdar elm xadimi (Şairin qardaşı)

Bütün varlığı, nəinki yaradıcılığı, həyat eşqindən ibarət olan Xalq Şairi Səməd Vurğunun öldüyünə inanmaq olmur. Biz onu indi də diri bilirik, səsini eşidirik, sönməz ilham eşqi ilə yanan gözlərini görürük...

O, parlaq bir həyatla yaşadı, xalq səadəti uğrunda ürəyini bir şam kimi əritdi. Səməd yüksəklərdə uçmaq üçün doğulmuşdu, mübarizələr, döyüşlər şairi idi.

...Səməd Vurğunun əsərləri gəncliyimizə daima yaşamaq və yaratmaq eşqi aşılayacaqdır.

Mirzə Ibrahimov,
Xalq yazıçısı, akademik

Səməd Vurğun yaradıcılığı qalib gələn Azərbaycan şerinin həm ideya, həm də forma etibarilə böyüyüb yüksəlməsini, milyonların qəlbini və ruhunu ifadə edən qüvvətli, bədii bir silaha çevrilməsini əks etdirir.

Məmməd Arif,
Ədəbiyyatşünas, akademik

Azərbaycan ədəbiyyatı Səməd Vurğun kimi böyük şairlərimizin əsərləri sayəsində yüksəldi, onların sayəsində bugünkü yüksək fikri və bədii səviyyəyə qaldırılmış oldu. Azərbaycan ədəbiyyatının tarixini yaradan şairlərimizin arasında Səməd Vurğunun mövqeyi xüsusidir.

Mikayıl Rəfili,
Ədəbiyyatşünas

Səməd gözəl şair, mərd insan və sədaqətli dost idi. O, həqiqi xalqlar dostluğunu, şairlər arasındakı dostluğun, mərdanə dostluğun nə demək

olduğunu çox gözəl bilirdi. Məhz buna görə də ölkəmizin hər yerində və onun hüdudları xaricində Səmədin çoxlu dostları vardır.

Konstantin Simonov,
Rus yazıçısı

Səməd Vurğun! Qardaş dillərimizin böyük Xalq Şairi, dillərimiz yaşadıqca ölümsüz yaşayacaq.

Nazim Hikmət,
Türk şairi

Azərbaycan və Səməd Vurğun bir-birindən ayrılmazdır. Azərbaycan və Səməd Vurğun eyni bir məfhumdur, çunki Səməd öz xalqının ən yaxşı xüsusiyyətlərini-onun sadəliyini, cəsarətliliyini, dərin zəkasını və qüdrətli istedadını təcəssüm etdirir.

Rəsul Həmzətov,
Dağıstanın Xalq şairi

SƏMƏD VURĞUNUN HƏYAT VƏ FƏALIYYƏTININ ƏSAS TARIXLƏRI

16 Qazax rayonunun Qırax Salahlı kəndində anadan olmuşdur.

32 Şairin anası Məhbubə xanım vəfat etmişdir.

38 Qırax Salahlı kəndindəki məktəbdə oxumuşdur.

38 Ailəsi Qazax şəhərinə köçmüşdür.

38 Səməd Qazax Müəllimlər Seminariyasına daxil olmuşdur.

42 Atası Yusif Vəkilov vəfat etmişdir.

43 Səmədə analıq edən sevimli nənəsi Ayişə vəfat etmişdir.

44 Səməd Qazax Pedaqoji Texnikumunu bitirmiş, əmək fəaliyyətinə başlamışdır.

46 Qazax rayonunun II Şıxlı və Köçəsgər kəndində müəllim və məktəb müdiri işləmişdir.

47 Quba rayonunda müəllim işləmişdir.

9 Gəncədə müəllim işləmişdir.

1 Moskva Dövlət Univerisitetinin filoloji fakultəsində oxumuşdur.

1 Azərbaycan Elmi-Tədqiqat Institutunun ədəbiyyat üzrə aspiranturasına daxil olmuş, «Koms
ması» nı yazmağa başlamış və ömrünün axırına kimi həmin poema üzərində işini davam etdirmişdir.

4 Azərbaycan Sovet Yazıçılar Ittifaqının məsul katibi seçilmiş, 1937-ci ilə kimi həmin vəzifədə işləmişd

4 SSRI Yazıçılar Ittifaqının I qurultayında nümayəndə kimi iştirak etmiş, böyük proletar ədibi M.Qor
şmüş, burada SSRI Sovet Yazıçıları Ittifaqının Idarə Heyətinə üzv seçilmişdir.

5 ZSFSR Mərkəzi Icraiyyə Komitəsinə üzv seçilmişdir.

6 Lenin ordeni ilə təltif edilmişdir.

7 Puşkinin «Yevgeni Oneqin» poemasını Azərbaycan dilinə tərcümə etmişdir. Umumittifaq Puşkin kon
fından «Puşkin medalı» ilə təltif olunmuşdur.

7 Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» pemasını (bir hissə) tərcümə etdiyinə
afqaziya Mərkəzi Icraiyyə Komitəsi tərəfindən Fəxri Fərmanla mükafatlandırılmışdır.

8 Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir.

9 «Şərəf nişanı» ordeni ilə təltif olunmuşdur.

0 Sov. IKP üzvlüyünə qəbul edilmişdir.

1 Azərbaycan Sovet Yazıçılar Ittifaqının Idarə Heyətinə sədr seçilmiş, 1948-ci ilə kimi həmin vəz
nişdir.

3 Səməd Vurğuna Azərbaycan SSR Əməkdar Incəsənət Xadimi adı verilmişdir.

5 Şair «Qırmızı Əmək Bayrağı» ordeni ilə təltif edilmişdir.

5 Azərbaycan SSR Elmlər Akademiyasına həqiqi üzv seçilmişdir.

6 «Qırmızl Əmək Bayrağı» ordeni ilə təltif olunmuşdur.

7 SSRI Ali Sovetinin deputatları heyətində Londonda olmuşdur.

8 Polşanın Vrotslav şəhərində (avqust) sülhü müdafiə edən mədəniyyət xadimlərinin Ümumd
qresində iştirak etmişdir.

0 Ikinci dəfə SSRI Ali Sovetinə deputat seçilmişdir.

4 Azərbaycan SSR Elmlər Akademiyasının prezident müavini seçilmişdir.

4 Üçüncü dəfə SSRI Ali Sovetinə deputat seçilmişdir.

4 SSRI Sovet yazıçılarının II qurultayında «Sovet poeziyası» haqqında məruzə etmişdir.

6 Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə ona Xalq Şairi fəxri adı verilmişdir.

6 Ikinci dəfə Lenin ordeni ilə təltif edilmişdir.

6 Azərbaycan Dövlət Universitetinin elmi şurasının qərarı ilə Səməd Vurğuna fəxri filoloji elmlər do
verilmişdir.

6 May ayının 12-də şairin anadan olmasının 50 illiyi təntənəli surətdə qeyd edilmişdir.

6 Mayın-27-də Səməd Vurğun Bakıda vəfat etmişdir.

SƏMƏD VURĞUNUN ƏSƏRLƏRININ, ONUN HAQQINDA OLAN ƏDƏBIYYATIN KITABXANALARIN SORAQ-BIBLIOQRAFIYA APARATINDA ƏKS OLUNMASI

Qeyd etmək lazımdır ki, Səməd Vurğunun çoxşaxəli zəngin irsinin geniş oxucu kütləsinə çatdırılması üçün bütün mədəni-maarif müəssisələri, o cümlədən, kitabxanalar qarşısında təxirəsalınmaz vəzifələr durur. Əlbəttə, bunların həyata keçirilməsi üçün respublikanın bütün kitabxanaları, xüsusən də MKS-ləri tərəfindən birinci növbədə də geniş və məzmunlu tədbirlər planı hazırlanmalıdır. Bu plana şairin əsərlərinin və onun haqqında ayrı-ayrı dövrlərdə çapdan buraxılmış nəşrlərin yetərincə komplektləşdirilməsinə, onun əlifba və sistemli oxucu kataloqlarında məntiqi baxımdan düzgün əks etdirilməsinə ciddi qayğı ilə yanaşılmalıdır. Bütün kitabxanalar özünün əlifba və sistemli kataloqlarında və biblioqrafik kartotekalarında xüsusi rubrika açmalı və burada şairin yaradıcılıq irsini ardıcıllıqla yerləşdirməlidirlər.

Tədbirlər planında Milli elmi, xüsusi elmi kitabxanaların, eləcə də MKS-lərin oxu zallarının nəzdindəki, yardımçı ədəbiyyat fondlarında S.Vurğunun əsərlərinin yerləşdirilməsinə mühüm fikir verilməlidir.

Kitabxana işçiləri çalışmalıdırlar ki, MKS-in böyük kitabxana filiallarında S.Vürğunun öz əsərləri və onun haqqında olan kitablar önəmli şəkildə özlərinə yer tutsunlar.

Kitabxana işçiləri bu məsələlərin reallaşdırılması üçün sistemin Mərkəzi kitabxanalarının mübadilə şöbələrinin imkanlarından məqsədyönlü şəkildə istifadə etməlidirlər.

Respublikanın MKS-ləri ona nail olmalıdırlar ki, sistemin Mərkəzi Kitabxanasının və onun kənd kitabxana-filiallarının əlifba və sistemli kataloqlarında S.Vurğunun əsərlərinin və YII cildiliyi, YI cildliyi və seçilmiş əsərlərinin III cildliyi öz əksini tapsın. MKS işçiləri dahi şairimiz S.Vurğunun əsərlərinin kataloqlarda öz əksini tapması üçün ikigünlük seminarlarda araşdırmalar aparmalı və bilməlidirlər ki, hansı kənd kitabxana filiallarında S.Vurğunun əsərləri azlıq təşkil edir. Bir sözlə, bütün kitabxanalar şairin 100 illik yubileyinin təntənəli keçirilməsinə böyük fəallıqla yanaşmalıdırlar.

KITABXANALARDA SƏMƏD VURĞUN IRSININ TƏBLIĞINDƏ ƏYANI VƏ ŞIFAHI TƏBLIĞAT FORMALARININ ROLU

Səməd Vurğunun bütün əsərlərinin və onun haqqında nəşr olunmuş kitabların, eləcə də dövrü mətbuat materiallarının çoxsaylı oxuculara çatdırılması üçün bütün kitabxanalar, xüsusən də MKS-lər əyani və şifahi

təbliğatın kitab sərgilərindən, kitabxana plakatlarından, stendlərdən, «Işıq qəzetindən, yardımçı qutulardan, söhbətlərdən, oxucu konfranslarından, sual-cavablardan, biblioqrafik xülasələrdən, məruzə və mühazirələrdən və s. vasitələrdən məqsədə uyğün şəkildə istifadə etməlidirlər.

Ənənəvi olaraq birinci növbədə kitab sərgilərindən söhbət açmağı, onun imkanlarından istifadə olunmasını diqqətə çatdırmağı səmərəli hesab edirik. Kitabxana işçilərinin nəzərinə çatdırmaq lazımdır ki, ümumən əyani təbliğat daha geniş oxucu kütləsinin sistemli şəkildə əhatə edə bilir və onların mütaliəsinə müsbət təsir göstərir. Belə ki, əyani yollarla ədəbiyyat təbliğinin formaları olan kitab sərgiləri və kitabxana plakatları 15-20 gündən tez dəyişdirilmir. Həmin müddətdə ona mümkün qədər çox oxucu baxa bilir. Bunu da xüsusi vurğulamaq lazımdır ki, əyani təbliğat bilavasitə gözlə görmək prinsipinə əsaslanır. Bilavasitə gözlə görüb qavramanın daha təsirli iş metodu olduğunu artıq kitabxanaların psixoloji və təcrübi işi özünə haqq qazandırmışdır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, kitabxanaların xarici görünüşünün oxucular qarşısında nümayiş etdirilməsi hər vaxt onun məzmununun təbliği üçün kifayətləndirici tövsiyə rolunu oynaya bilməz. Məhz buna görə də oxucuya kitabla bilavasitə tanış olmaq şəraiti yaradılmalıdır. Imkan vermək lazımdır ki, oxucu kitabı götürüb vərəqləyə bilsin, mətni gözdən keçirə bilsin, kitabın girişindən və mündəricatından istifadə etsin və nəhayət, onun sxemlərinə, şəkillərinə və illüstrasiyalarına baxa bilsin. Bu vaxt oxucu həmin kitabın nədən bəhs etdiyini, orada hansı problemlərin həlli yollarının göstərildiyini və həmin kitabın ona gərək olub, olmadığını aydınlaşdıra bilər.

Elə buradaca bizi narahat edən bir məsələni açıqlamaq yerinə düşər.

Müasir şəraitdə bir sıra şəhər, rayon və kənd kitabxanalarında kitab sərgilərinin və kitabxana plakatlarının geniş imkanlarından yetərincə istifadə olunmur. Bəzən kitab sərgilərinin və kitabxana plakatlarının başlıqları sərginin məzmununa xidmət etmir. Belə sərgilərin və kitabxana plakatlarının başlıqları oxucunu ciddi maraqlandıra bilməz. Kitabxana işçiləri oxucuların estetik maraqlarına həmişə cavab verməyə hazır olmalıdırlar. Onlar başlıqları göz oxşayan xətlə yazmalı, yaxud yazdırmalıdırlar. Ədəbiyyatın sistemləşdirilməsində də nöqsanlara yol verilir. Biz bütün kitabxanaçılara, xüsusən də MKS-lərə tövsiyə edirik ki, kitab sərgilərində və kitabxana plakatlarında hər şeydən əvvəl kitabları, yaxud onların üz qabıqlarını nümayiş etdirməli və bununla yanaşı, yeri gəldikcə, illüstrasiya materiallarından, sitatlardan da istifadə olunmalıdır.

Bütün kitabxanalara, xüsusən də MKS-lərə məsləhət görürük ki, «Səməd Vurğun - 100», «Səməd Vurğun planeti gəzir», «Milyonların şairi», «Dostluq və qardaşlıq nəğməkarı», «Azərbaycanın ilk Xalq Şairi», «Vətənpərvərlik duyğularını özündə gəzdirən şair», «Təbiəti sevən və onun gözəlliklərinə vurğun olan şair», «Səməd Vurğun ürəklərdədir», «Dünya şöhrətli sənətkar» və s. başlıqlar altında kitab sərgiləri, kitabxana plakatları, məruzələr və mühazirələr təşkil etsinlər.

Indi isə fikrimizi əyani baxımdan əsaslandırmaq üçün «Səməd Vurğun-100» başlığı altında kitab sərgisinin təxmini sxemini verməyi məqsədyönlü hesab edirik.

1		
2	3	4
5	6	7
8	9	10
11	12	13
14	15	16
17	18	19
20	21	22
23		

1. ***Başlıq:*** «Səməd Vurğun –100»

2. Səməd Vurğunun şəkli.

3. S.Vurğun Əsərləri: 7 cilddə /Tərt.O.Sarıvəlli; Ə.Hüseynov; Izahlar və şərhlər. Ə.Hüseynov. Ön söz M.Ibrahimovundır.- B.; Elm, 1985. – C I .- Şerlər.- 448 s.

4. Vurğun S. Əsərləri: 7 cilddə /Tərt.O.Sarıvəlli, Ə.Hüseynov; Izahlar və şərhlər. Ə.Hüseynovundur.- B.; Elm,1985.- II c.- Şerlər. - 1985.- 406 s.

5. ***Sitat:*** *«Səməd Vurğun öz dövrünün, zəmanəsinin mühitində, çərçivəsində yazıb, yaradıb və Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstəribdir, Azərbaycan ədəbiyyatını, mədəniyyətini, dünya ədəbiyyatını zənginləşdiribdir. Fitri, parlaq istedadı, çox nadir xüsusiyyətə malik olan istedadı, eyni zamanda ən gənc yaşlarından yazıb-yaratmaq əzmi Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə çevirmiş və o, həm Azərbaycanda, həm də, bir çox xarici ölkələrdə tanınmış, sayılan bir insan olmuşdur»***.

Heydər Əliyev,
Ummmilli lider

6. *Sitat:* *«Səməd Vurğun Azərbaycan klassik poeziyasının ən yaxşı ənənələrini özündə birləşdirmişdir. Onun qələmində Nizami müdrikliyi Füzuli lirikasının hərarəti, Vaqif sadəliyi, Sabir kəskinliyi vardır. Onun yaradıcılığında, eyni zamanda Azərbaycan xalqının əsrlərdən bəri yaratdığı xalq poeziyasının, dərin mənalı, sadə və aydın aşıq lirikasının, aşıq Qurbani, aşıq Ələsgər qoşmalarının, xalq dastanı və nağıllarının da təsiri vardır».*

Məmməd Arif,
Ədəbiyyatşünas, akademik

7. Nəzirli Ş. Vurğun ömrü: (S.Vurğun haqqında) /Tərt. ed, müqəddimənin müəl. Ş.Nəzirlidir; Red. M.Quliyeva.- B.: Azərnəşr, 1982. - 106s.

8. Vəkilov M. Ömür dedikləri bir karvan yolu /(Ön söz Y.Mustafayevindir). - B.: Yazıçı, 1986.- 192 s.

9. Vahabzadə B. Səməd Vurğun: Monoqrafiya.- B.: Azərnəşr, 1968. - 348 s.

10. Mehdi F. Alovlu publisist Səməd Vurğun /Red. M.Müştaq.- B.: Azərnəşr, 1967.- 1921s.

11. Sitat: *«Xalq Şairi adını daşımaq Azərbaycanda ilk dəfə S.Vurğuna nəsib olmuşdur. Ancaq bu ad rəsmən verilməmişdən xeyli əvvəl də o, Xalq Şairi şöhrətini, umumxalq məhəbbətini qazanmışdı. Şair hər yerdə, hər kənddə, hər obada, hər məclisdə sevinc və ehtiramla qarşılanır, alqışlanır, onunla hər görüş təntənəyə çevrilirdi; xalq istəyi qarşısı alınmaz, gündən-günə coşub-daşan bir sel kimi axıb gedir, yeni-yeni ürəklər fəth edirdi. Bu umumxalq məhəbbətinin səbəbini işə şair çox sadə, lakin dəqiq təyin etmişdi: «Mən ellər oğluyam, ellər canımdır!».*

Kamal Talıbzadə,
ədəbiyyatşünas, akademik

12. Əhmədov Q. Səməd Vurğun.- B.,1986.- 364 s.

13. Vurğun S. Yada sal məni: (Şerlər) /Tərt. və red. Aybəniz Vurğun qızı.- B.: Gənclik, 2003.- 195 s.

14. Vurğun qəlbimizdədir (Şerlər) /Tərt. və müqəddimə V.Rüstəmzadənindir. Red. R.Zəbioğlu.-B.: Azərnəşr, 1976.-

102 s.

15. Bağırov V. Səməd Vurğun 70: (Foto - kitab). - B.: Işıq, 1976.- 19 s.

16. Arif M. Səməd Vurğunun dramaturgiyası.-B.: Azərb. EA nəşriyyatı, 1964.- 238 s.

17. Bağırov Bağır. Dostluq və qardaşlıq nəğməkarı: (Xalq şairi) Səməd Vurğunun anadan olmasının 70 illiyi münasibətilə). - B., 1976.- 69 s.

18. S.Vurğunun aforizmləri /Tərt., və ön sözün müəl. I.Sadıqdır.-B.: Azərnəşr, 1987.-95 s

Sən ana torpağı qarış-qarış gəz,
Hər daşın altında bir göhər axtar
Eşqinə, qəlbinə yad ola bilməz
Vətən sevgisi ilə yanan sənətkar…

S.Vurğun

20. Sitat: *«Ürəyində xalqın istək və arzularını gəzdirən, onun səadəti üçün öz mənalı ömrünü əsirgəməyən insanlar heç vaxt unudulmur. Zaman keçdikcə böyük sənət abidələri köhnəlir, coşqun təəssürat uzaq və əlçatmaz, lakin əziz xatirələrə çevrilir. Ancaq bütün varlığı ilə zəhmətkeş insana bağlı sənətkarlar xalqın ürəyində yaşayır, onun xatirəsi cələcək nəsillər üçün əziz və doğma olur. Sanki ilk baharda açılan hər bir ətirli çiçəkdə, məsum körpənin təbəssümündə ananın beşik başındakı həzin laylasında, nəhəng maşınları idarə edən fəhlənin əməyində həqiqi sənətkarın nəfəsini duyur, sözlərini eşidirsən.*

Səməd Vurğun belə sənətkarlardandır. Onun butun həyatı doğma xalqı ilə, yer üzündə xoşbəxtlik uğrunda çarpışan qəhrəman insanların arzuları ilə üzvi sürətdə bağlıdır.»

Əhəd Hüseynov,
ədəbiyyatşünas

21.

Mən ellər oğluyam! Ellər canımdır,
Xəyalım, sənətim həyəcanımdır.
Çayların ahəngi axır qanımda,
Çiçəklər öpüşür hər dastanımda;

Hər bulaq, hər gülüş, hər yaşıl yarpaq,
Bü sünbül, bü əkin, bu daş, bu torpaq,
Bu çovğun, bu külək, bu söhbət, bu saz,

Ətirlər içində «gəl!» deyən bu yaz.

Bağrından su sızan dəlikli daşlar,
Göydə qanad çalan havalı quşlar,
Çayların üstündə süzən sonalar.
Qəlbi dağlar kimi böyük ananlar.
Mənim qismətimə düşmüş əzəldən,
Tarixlər zövq alır yaradan əldən...

Səməd Vurğun,
«Talıstan» poemasından

22. Bayramov A.Yaşayan ömür.-B.: Işıq,1990.- 60 s.

23. Bu kitabları oxuyun!

Kitabxana işçilərinə məsləhət görülür ki, dünyaşöhrətli Xalq şairi Səməd Vurğunun zəngin irsinin təbliğinə həsr olunmuş kitab sərgisinin yanında məlumat masası təşkil etsinlər və sərgiyə baxan oxucuların sərgi haqqında fikirlərini umumiləşdirib, özlərinin uçot dəftərində qeydiyyatını aparsınlar. Yeri gəlmişkən qeyd edək ki, belə sərgilər kitabxanalarda uzun müddət ərzində saxlanılır və S.Vurğun haqqında kitabxana fondlarına daxil olmuş, əlavə ədəbiyyat nüsxələrinin artırılması hesabına zənginləşdirilir. Kitabxanaçılar və biblioqraflar kitab sərgisinə müraciət edən oxuculara Səməd Vurğun irsinin dərindən öyrənilməsi üçün məqsədyönlü suallar da versələr faydalı olar. Kitabxana işçiləri bu dövrdə geniş oxucu qruplarını sərginin 23-cü xanasında yerləşdirilmiş əlavə ədəbiyyat siyahısı ilə də tanış etməlidirlər.

Göstərmək lazımdır ki, təsviri incəsənətin kütləvi bir növü olan plakat önəmli təbliğat vasitələrindən biridir. Kitabxana plakatı vasitəsilə geniş oxucu kütləsinin diqqəti qiymətli kitablara və mühüm mövzulara yönəldilir.

Bunu da demək vacibdir ki, kitab sərgisindən fərqli olaraq plakatda az sayda ədəbiyyat (təxminən 5-10 kitab, jurnal, və qəzet məqaləsi) göstərilr.

Plakatın əsas ünsürləri kitabların özü deyil, onların üz qabığı (əl ilə çəkilmiş, yaxud foto şəkli) bir necə sitat, mətn və plakatın əsas ideyasını müəyyən edən qısa, mənalı başlıqlardır.

Kitabxana plakatının tərtibi və məzmunu onun mövzusundan asılıdır. Belə ki, bir kitabın təbliğinə həsr olunmuş plakatda həmin kitabın üz qabığı, onun haqqında qısa annotasiya və bəzən də müəllifin şəkli yerləşdirilməlidir. Kitab sərgisində olduğu kimi, plakatın da aşağı küncündə yapışdırılmış ciblikdə həmin kitab haqqında qələmə alınmış resenziyaların nümayiş etdirilməsi kitabxanaçıların diqqətinə çatdırılmalıdır.

Qeyd etmək lazımdır ki, kitabxana plakatından səyyar kitabxanalda da istifadə olunmalıdır. Təəssüf ki, Respublikamızın bir sıra MKS-də və kitabxana-filiallarında plakatın tərtibinə ciddi fikir verilmir.

Səməd Vurğun irsinin əhatəli öyrənilməsi üçün əvvəlcə qeyd etdiyimiz kimi bütün kitabxanalar, şəhər və rayon MKS-nin mərkəzi kitabxanaları, həmçinin onların kənd kitabxana-filialları şifahi təbliğatın potensial imkanlarına malik olan məruzə və muhazirə formalarından məqsədyönlü şəkildə istifadə etməlidirlər. Kitabxana işçiləri bunu dərindən düşünməlidirlər ki, məruzə, yaxud mühazirə təşkil edərlərsə bilikli, bacarıqlı, üzaqgörən və S.Vurğun irsinə dərindən bələd olan şəxs seçilməli və həmin adam geniş oxucu auditoriyasını həvəsləndirməyi bacarmalıdır. Tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün hallarda umumtəhsil orta məktəblərinin ədəbiyyat müəllimlərinin imkanlarından istifadə olunmalıdır.

Kitabxana işçilərinə tövsiyə edirik ki, «Səməd Vurğunun poetikası», «Səməd Vurğun poeziyasının poetik və ideya qaynaqları», «Ədəbi tənqid və S.Vurğun yaradıcılığında poetika məsələləri», «Azərbaycan Səməd Vurğununun gözü ilə», «Səməd Vurğun yaşayır», «Səməd Vurğunun dramaturgiyası», «Səməd Vurğunun aforizmləri» və s. mövzularda məruzə və mühazirələr təşkil etsinlər. Bunu da demək lazımdır ki, məruzə və mühazirəlin mövzularına uyğun olaraq, tədbirin keçirilməsinə bir neçə gün qalmış kitab sərgisi təşkil edilməli və onun imkanlarından bacarıqla istifadə olunmalıdır. Əlbəttə, kitabxana işçilərinin diqqəti və uzaqgörənliyi sayəsində məruzəçi mövzuya uyğun olaraq, yaxud ümumi şəraiti nəzərə alıb auditoriyaya çatdırılmalıdır ki, S.Vurğuna görə dünya nemətlərini yaradan əllər sonsuz ehtirama, məhəbbətə layiqdir. Çünki, bu əllər vətən torpağını gülüstana çevirir, onu gözəlləşdirir. S.Vurğun yerin dərin qatlarından qara qızıl çıxaran usta Muradı nə qədər böyük məhəbbətlə tərənnüm edirsə, zəhmətkeş qəhrəman Bəstini də eyni ürək döyüntüsü, ehtirasla qələmə alır.

Natiq sözünə davam edərək bunu da qeyd edə bilər ki, əsrlərlə susuz qalan torpaqlara həyat gətirən Mingəçevir qəhrəmanı Sarvanın cəsarətini nə qədər ürəkdən alqışlayırsa, öz əlinin əməyi ilə doğma torpağı yaşıllığa qərq etməyə çalışan işgüzar bağbanı da eyni məhəbbətlə tərənnüm edir.

Natiq öz fikrini həmin müstəviyə gətirib deyə bilər ki, S.Vurğunun şair xəyalı Yer üzünü dolaşsa da yenə doğma torpağına, canından əziz tutduğu doğma Azərbaycana bağlıdır.

Məruzə və mühazirələr vasitəsilə S.Vurğunun təbiətə vurğunluğunu açıb göstərmək lazımdır ki, bütün dinləyicilər həmin gözəllikləri dərindən başa

düşsünlər. Məruzə vasitəsilə qeyd edilməlidir ki, Azərbaycanın misilsiz gözəllikləri: «Şəhərin yaqut rəngi», «Bahar axşamlarının görkəmi», «Üfüqdən-üfüqə əyilən göy qurşağının əlvan rəngləri», «Göylərə baş çəkən Göyəzən dağı», Dəli Kürün zümzüməsi ətrindən, təravətindən behiş olduğu rəngarəng çiçəklər şairin könül sazını həmişə dilə gətirir.

Məruzə vasitəsilə natiq qeyd etməlidir ki, S.Vurğun lirik şerin gözəl duyğular tərbiyə etmək xüsusiyyətlərini belə müəyyənləşdirmişdir: «Lirik şer, nəğmə insanın qəlbini dilə gətirməli, onun qəlbində yuva salmalı və zümrüd quşu kimi onu isindirməli, zəhmətdə, mübarizədə, kədərli və nəşəli dəqiqələrdə insana yoldaş olmalı, onda nəcib hisslər oyatmalı və beləliklə də insanı yüksəltməli, onu daha güclü, daha agıllı və mənəvi baxımından zənginləşdirməlidir.»

Natiq öz məruzəsində bunu da qeyd etməlidir ki, S.Vurğun lirikası doğma Azərbaycanla üzvi surətdə bağlıdır. Bu bağlılıq onun şerlərinə nikbinlik gətirmiş, Vətən və Xalq üçün yaşayıb-yaratmaq həvəsini alovlandırmışdır.

S.Vurğunun zəngin poeziyası ilə onun dramaturgiyası da Azərbaycan ədəbiyyatında xüsusi bir mərhələ təşkil edir. Şairin bir-birinin ardınca yazdığı «Vaqif», «Fərhad və Şirin», «Xanlar», «Insan» və mənzum dramları ilə dramaturgiyamızı daha da zənginləşdirmişdir. Bu pyeslər içərisində uzun illərdən bəri oxucuların dərin hüsn-rəğbətini qazanan Vaqif pyesinin dərindən öyrənilməsi oxucular arasında təbliğ olunması üçün kitabxana işçiləri şifahi təbliğatın musiqili ədəbi-bədii gecə və oxucu konfransı formasında və onun imkanlarından bacarıqla istifadə etməlidirlər. Həmin tədbirlərin keçirilməsinə bir aydan artıq vaxt qalmış kitab sərgiləri təşkil olunmalı, kitabxanaya gələn oxuculara S.Vurğunun həmin əsəri təqdim olunmalı, onun izahı genişləndirilməlidir.

Bir qayda olaraq, kitabxana işçiləri tədbirin planını və proqramını hazırlayıb müzakirə etdikdən sonra fəaliyyətə başlamalıdırlar. Kitabxanaçılar tədbirin keçiriləcəyi ərəfədə yaxınlıqda yerləşən umumtəhsil orta məktəblərinə müraciət etməli və ədəbiyyat müəllimləri ilə birlikdə proqramı gözdən keçirib məsləhətləşmələr aparmalıdırlar. Tədbirin keçirildiyi gün kitabxana işçiləri klublar və mədəniyyət evləri ilə əlaqə yaratmalı və onların imkanlarından istifadə etməlidirlər. Bunu da qeyd edək ki, musiqili ədəbi-bədii gecənin və oxucu konfranslarının materialları sənədləşdirildikdən sonra xüsusi qovluqlarda saxlanıb mühafizə olunmalıdır.

KITABXANALARDA SƏMƏD VURĞUN AFORIZMLƏRININ SEÇILMƏSI VƏ TƏBLIĞI

Kitabxanalar Səməd Vurğunun zəngin irsinin öyrənilməsi məqsədilə şairin qiymətli aforizmlərindən də önəmli şəkildə istifadə etməlidirlər. Qeyd etmək lazımdır ki, atalar sözləri, bayatılar, nağıllar, dastanlar xalqın

yaddaşında min illər boyu ağılların süzgəcindən süzülə-süzülə gəlib bizə çatmışdır. Səməd Vurğunun hikmətli misallarının-aforizmlərini mütaliə edəndə adama elə gəlir ki, onlar da atalar sözlərimiz, dastan yuklu bayatılarımız kimi, ömür boyu yaddaşlarda yaşayıb cilalanıb.

Biz kitabxana işçilərini həmin aforizmlərlə tanış etmək üçün onların məzmununa uyğun olaraq anlaşıqlı bölmələrdən istifadə etməyi məqsədəuyğun hesab edirik.

Torpağa düşməsin
havayı bir dən,
Çörək bol olarsa,
basılmaz vətən!

* * *

Soyuq məzara da zinətdir
insan.

* * *

Insandır ən böyük qüvvə
cahanda

* * *

Köksüz bir ağacın meyvəsi
varmı?
Insan da əslini heç unudarmı?

* * *

Yer üzünün şan-şöhrəti
olacaq insan.

* * *

Vətən! Namus da, vicdan da
Yaranmış şanlı hüsnündən!
Vətən qoynunda bəslənmiş
Əməllər, arzular, şəksiz.
Vətənsiz, yurdsuz insanlar
Yaşar aləmdə məsləksiz!

* * *

Insanlıq böyükdür əzəldən bəri
Vətəndən ayrılsa, qocalar insan

* * *

Nə qədər doğmadır burda hər nəfəs
Bir də hər insanı, hər şeyin adı
Bir ovuc torpağı göyə dəyişməz
Bir həyat şairi, bir yer övladı…

* * *

Dünyanı quran da, yıxan da əldir.

* * *

Insan yaratmışdır bizi təbiət

* * *

Öz sadiq oğlunu torpaq unutmaz…
Elə zənn etmə ki, qayalar daşdır!
Ana övladını yad kimi tutmaz,
Bu daş da, qaya da qəlbə sirdaşdır…

* * *

Sən ana torpağı qarış-qarış gəz,
Hər daşın altında bir gövhər axta.
Eşqinə, qəlbinə yad ola bilməz
Vətən sevgisi ilə yanan sənətkar…

* * *

Bizdə təbiətə zülm edənlərin
Nə insan duyğusu, Nə də haqqı

var!

* * *

Şerimiz, sözümüz, elmimiz də var,
Arif yaşamışdır bizim babalar.
Lakin xoş olsa da söz ilə sənət.
Böyük sərkərdələr yetirən millət
Yalnız qalibiyyət çələngi taxar,
Gələcək günlərə vüqarla baxar

* * *

Yoxsa da dünyanın
ucu-bucağı,
Hər yerdən istidir
ana qucağı.

* * *

Ananın qəlbinə toxunmaq olmaz,
Ana nəfəsindən çiçək də solmaz.
Insanlıq süd əmmiş ana döşündən,
Soyuq bir məzardır anasız Vətən.

* * *

Ana müqəddəsdir, ana doğmadır
Ən böyük məhəbbət yalnız ondadır.
Yoxsa da dünyanın ucü-bucağı,
Hər yerdə istidir ana qucağı.

* * *

Dünya bir evdirsə, övlad işıqdır,
Oğul arxadırsa, qız yarışıqdır…

* * *

Qadın əllərilə hər ev hər ocaq
Ətirlər qoxuyub, gül-çiçək açar.
Həyatın nəfəsi qadındır ancaq,
Bağlı qapıları o əllər açar.

* * *

Günəş batmaz ilk şəhərdə…

* * *

Günəşin üzünü bulud alsa da,
Göydə bir anlığa gün qaralsa da
Yenə işığını ondan alacaq.
Insan da, torpaq da, hava da su da.

S.Vurğunun aforizmləri /Tərt., və ön sözün müəl. I.Sadıqdır.-B.: Azərnəşr, 1987.-95 s.

Deyilənləri yekunlaşdırıb belə bir nəticə çıxarmaq olar ki, Səməd Vurğunun poeziyası çox zəngin və hərtərəflidir. Onun müxtəlif mövzulara həsr olunmuş şerləri içərisindən insana, adamlarımızın xoşbəxt həyatına məhəbbət qırmızı xətlə keçir. Səməd Vurğun alovlu vətənpərvər idi. Lakin o, ancaq doğma Azərbaycanı, onun təbiətini, zəhmətkeş, zəkalı, səmimi insanlarını tərənnüm etməklə məhdudlaşmamış, həmçinin dünya xalqlarının ən nəcib arzularını – mübarizəni, yaşayıb-yaratmaq eşqini poeziya dilinə çevirmişdir.

Xüsusi vurğulanmalıdır ki, unudulmaz şairin zəngin poeziyası dərindən öyrənilməyə, tədqiqata zəruri ehtiyacı olan yaradıcılıq mənbəyidir. Bu gün Respublikamızın böyük kitabxana ictimaiyyəti şairin yaradıcılıq ənənəsini yaşatmaq və təbliğ etmək ruhunda çox çalışmalıdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Səməd Vurğunun 90 illik yubileyinə həsr olunmuş nitqində dediyi sözlər kitabxana işçilərinin şairə olan ehtiramını daha da yüksəklərə qaldırır. Heydər Əliyev demişdir ki, Səməd Vurğun eyni zamanda böyük alim, filosof idi. Istedadlı şair

Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından biri idi. Səməd Vurğun eyni zamanda Elmlər Akademiyasının yaradılmasının təşəbbüsçülərindəndir. O, sadəcə akademik seçilmiş bir adam deyil, Səməd Vurğun və məhz onun kimi Üzeyir Hacıbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mustafa Topçubaşov, Mirzə Ibrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycanın Milli Akademiyası yaranıbdı. Bu böyük tarixi hadisədir.

Səməd Vurğunun xidmətləri böyükdür. Ən böyük xoşbəxtlik ondadır ki, S.Vurğun ömrünün son illərində burada həmin akademiyanın vitse prezidenti vəzifəsini daşımışdır və Azərbaycan elminin, ədəbiyyatşünaslığının inkişafına çox əvəzsiz xidmətlər göstərmişdir.

Tədbirlərin keçirilməsinə kömək məqsədilə vəsaitin sonunda geniş ədəbiyyat siyahısının verilməsini məqsədəmüvafiq hesab edirik.

C.CABBARLI adına
RESPUBLIKA GƏNCLƏR KITABXANASININ
XALQ ŞAIRI SƏMƏD VURĞUNUN ANADAN OLMASININ
100 ILLIK YUBILEYI MÜNASIBƏTILƏ HAZIRLADIĞI
METODIK TÖVSIYYƏLƏR

GÖRKƏMLI ŞƏXSIYYƏTLƏR
SƏMƏD VURĞUN HAQQINDA

Səməd Vurğun öz dövrünün, zəmanəsinin mühitində, çərçivəsində yazıb-yaradıb və Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstəribdir, Azərbaycan ədəbiyyatını, mədəniyyətini, dünya ədəbiyyatını zənginləşdiribdir.

Heydər
Əliyev,
Ummmilli lider

Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu məna da Səmədin şerləri əvəzsizdir.

Üzeyir Hacıbəyov,
Görkəmli bəstəkar

Bu görkəmli xalq şairinin heç bir əsərini, heç bir misrasını, heç bir tədbirini xalq mənafeyindən ayrı düşünmək mümkün deyildir. Səmədin özü kimi əsərləri də, düşüncə və arzularıda qırılmaz tellərlə xalqa bağlıdır.

Abdulla Şaiq,
yazıçı

Hər xalqın ədəbiyyatında elə yazıçılar var ki, birdən onların bir neçəsini ədəbiyyatdan götürsək, qətiyyən yeri görünməz. Lakin elə tək-tək sənətkarlar var ki, onların birinin yoxluğu ilə bir xalqın ədəbiyyatında uçurum əmələ gələ bilər. Bizim müasir Azərbaycan ədəbiyyatı Səməd Vurğun belə sənətkar, belə şəxsiyyətdir. Onsuz bizim ədəbiyyatdan danışmaq mümkün olmazdı.

Mehdi Hüseyn,
Yazıçı, tənqidçi

Illər böyük ustadın yaradıcılığını xələldar edə bilmir. Səməd Vurğun yüksək amallar və duyğular şairidir. Romantika və poeziya cəngavəridir. Səməd Vurğun ən adi şeylər haqqında həyəcan və ilhamla söhbət edə bilən, hər hansı bir faktın sadəliyində onun əzəmətini görə bilən şairdir. Heç bir vəziyyətdə ümumi mənafeyi şəxsi mənafeyə qurban verməzdi.

Mirzə Ibrahimov,
Xalq yazıçısı, akademik

Gələcək nəsillər Azərbaycan şeirinin tarixini öyrənmək istəyəndə mütləq Səməd Vurğunun kitablarına müraciət edəcəklər. Nizami ilə Füzulini, Nəsimi ilə Xətaini, Sabirlə Zakiri, Vaqiflə Natəvanı yaxşı başa düşmək üçün Səməd Vurğunun dili açar olub bütün kilidlərə düşəcəkdir.

Səməd Vurğun Azərbaycan xalqının milli vüqarıdır. Səməd Vurğun Azərbaycan şeirinin fəxridir. Səməd Vurğun Azərbaycan incəsənətinin saf və büllur aynasıdır.

Əli Vəliyev,
Xalq yazıçısı

Səməd Vurğun son nəfəsinədək bizim ədəbiyyatımızın və sənətimzin qayğısına qalır, onun bayrağını daim uca tutmağı bizə vəsiyyət edirdi. Səməd Vurğun ədəbiyyatımızın, sənətimizin, xalq yaradıcılığının inkişafına müstəsna diqqət yetirir, bizi xalq içərisindən çıxan gənc şairlərə, yazıçılara və incəsənət işçilərinə qayğıkeşlik və həssaslıqla yanaşmağa çağırırdı.

Süleyman Rəhimov
Xalq şairi

Səməd Vurğun poeziyasında Nizami hikməti, Füzuli lirizmi, Vaqif sadaliyi, Sabirə məxsus kəskinlik cəmləşmişdir.

Məmməd Arif,
Ədəbiyyatşünas, akdemik

Onun şerlərində xalqın ürəyi döyünürdü, xalqın nəbzi vururdu. Səməd Vurğun poeziyası yorulmaq bilməyən, həmişəcavan, həmişəbahar poeziyadır. Bu poeziya bu gün də dünənki kimi təravətlidir, hərarətlidir, həyat səslidir, inqilab nəfəslidir. Bu poeziya sabah da belə olacaq!

Süleyman Rüstəm,
Xalq yazıçısı

Səməd Vurğunu sənətinin kökləri ilə torpağın dərin qatlarına işləmiş nəhəng bir palıd ağacına bənzədə bilərik. Vurğun sənəti xalq torpağından boy atdı, əsrin ən qabaqcıl ideyalarından bəhrələndi və bu iki amilə görə də o, zəmanəsinin böyük sənətkarı oldu.

Bəxtiyar Vahabzadə,
Xalq şairi

Səməd Vurğun poeziyası-Azərbaycan xalqının məğrur ürək döyüntüsüdür. Xalq əbədi olduğu, Vurğun poeziyası da əbədi və ölməzdir.

Milli sənətə dərin hörmət onu dünya sənətinə dərin köklərlə bağladı.

Səməd Vurğun milli olduğu qədər beynəlmiləl, beynəlmiləl olduğu qədər də milli sənətkardır!

Nəbi Xəzri, Xalq şairi

Duruşu sərkərdə duruşu, baxışı qartal baxışı, hərəkəti şair hərəkəti idi. Ondakı dünyaya bağlılıq öz torpağına bağlılıqdan, başqa xalqlara vurğunluq öz xalqına vurğunluqdan yaranırdı.

Hüseyn Arif,
Xalq şairi

Səməd Vurğun ədəbiyyatımızın böyük istedadlı nümayəndəsi olmaqla bərabər nadir bir şəxsiyyət idi. Yüksək insani duyğulara, böyük ürəyə malik idi. Sözü bir, özü bütöv adam idi. Insanların həmişə yaxşı cəhətlərini görməyə çalışırdı.

Ilyas Əfəndiyev,
Xalq yazıçısı

Onun ülvü poeziyası xalqımızın poeziyasının ən yaxşı əsərləri kəhkəşanında parlaq ulduz kimi şəfəq saçır. Müxtəlif millətlərə mənsub olan milyonlarla sovet adamı bu poeziyanı sevir. Mən çoxdan bu poeziyanın məftunuyam. Dostluq həyatımızda ən böyük səadətdir və nə yaxşı ki, dünyada Səməd Vurğun var!

Səməd Vurğun poeziyamızın təzə zirvələr fəht edən qartallarındandır.

Aleksandır Fadeyev,
Rus yazıçısı

Azərbaycan və Səməd Vurğun bir – birindən ayrılmazdır. Azərbaycan və Səməd Vurğun eyni bir məfhumdur, çünki Səməd öz xalqının ən yaxşı xüsusiyyətlərini onun sadəliyini, cəsarətliyini, dərin zəkasını və qüdrətli

istedadını təcəssüm etdirir. Azərbaycan öz böyük oğlu Səməd Vurğunla fəxr edə bilər.

Rəsul Həmzətov,
Dağıstanın Xalq şairi

Səməd Vurğun poeziyamızın nəhəng planetidir. Bu planetin günəşi, ulduzları sönməzdir.

Səməd Vurğun qardaş dillərimizin böyük xalq şairi, dillərimiz yaşadıqca əbədi yaşayacaqdır.

Nazim Hikmət,
türk şairi

SƏMƏD VURĞUN YARADICILIĞININ GƏNCLƏR KITABXANALARINDA TƏBLIĞI

Bu ilin mart ayında unudulmaz şairimiz S.Vurğunun anadan olmasının 100 ili tamam olur. Biz bu vəsait vasitəsi ilə gənclər kitabxanalarına tövsiyə edirik ki, bu gündən başlayaraq, şairin yubileyi qarşısında rəngarəng tədbirlər keçirsinlər və ədəbi ictimaiyyəti həmin tədbirlərə geniş cəlb etsinlər.

Azərbaycanın ilk Xalq şairi Səməd Vurğunun 100 illik yubileyinin qeyd olunması münasibəti ilə Azərbaycan Respublikası Prezidenti Ilham Əliyev cənabları sərəncam imzalamışdır. Sərəncamda göstərilir ki, Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı tarixinin ən parlaq və təkrarsız səhifələrindən birini təşkil edir. Müasir Azərbaycan dilinin və ədəbiyyatının zənginləşməsində böyük rol oynamış sənətkarın bədii irsi mədəniyyətimizin inkişafında bütövlükdə yeni mərhələ olmuşdur.

Yubiley münasibəti ilə ədibin zəngin irsini, mənalı həyatını və çoxcəhətli ictimai fəaliyyətini gənc nəslə hərtərəfli tanıtmaq məqsədilə gənclər kitabxanalarının qarşısında mühüm vəzifələr durur. Belə ki, bununla əlaqədar olaraq, xüsusi tədbirlər planı hazırlanması və rəhbər orqanlarda təsdiq edilməsi məqsədəuyğundur. Geniş oxucu kütləsini onun həyat və yaradıcılığı ilə tanış etmək üçün müxtəlif kütləvi tədbirlərdən, o cümlədən əyani və şifahi təbliğat formalarından; yaradıcılıq gecələrindən, görüşlərindən, oxucu konfranslarından, kitab sərgilərindən, fotostendlərdən, məruzələrdən, söhbətlərdən, sual- cavablardan, biblioqrafik xülasələrdən, teatr tamaşalarından, kinofilmlərdən və s. bu kimi ənənəvi formalardan səmərəli şəkildə istifadə edə bilərlər.

Kitabxanalar tərəfindən geniş surətdə keçirilən ədəbi bədii gecələr, sayca daha çox oxucuya xidmət etməyə imkan verir və həm də bu yolla

gənc oxucuları ictimai-siyasi, elmi və bədii ədəbiyyatın ən yaxşı nümunələri ilə hərtərəfli tanış etmək mümkün olur.

Bildiyimiz kimi ədəbi-bədii gecənin proqramı adətən iki hissədən-rəsmi və bədii hissədən; ifadəli oxu və musiqi nömrələrindən, ədəbi-bədii gecənin əsas məzmununu təşkil edən kiçik səhnəciklərdən ibarət olur. Həm də ən başlıcası, proqramın hər iki hissəsi-rəsmi və bədii hissə biri-birinə üzvü surətdə bağlı olmalı, bir-birini zənginləşdirməli və tamamlamalıdır. Ədəbi-bədii gecənin keçirilməsi xüsusi hazırlıq tələb edir. Ədəbi-bədii gecəyə hazırlıq dövründə kitabxanada aparılan bütün işlər ədəbi-bədii gecənin keçirilməsinə istiqamətləndirilməli, ədəbi-bədii gecədə oxucuların fəal iştirakı təmin edilməlidir. Kitabxananın abonement şöbələrində, oxu zalında ədəbi-bədii gecənin mövzusuna aid ədəbiyyatı təbliğ etmək məqsədilə kitabı əyani olaraq tövsiyə etmənin ən yaxşı üsullarından sayılan cəlbedici və məzmunlu kitab sərgiləri təşkil etmək lazımdır.

Gecənin ikinci hissəsinin, yəni bədii hissəsinin hazırlığına ayrıca fikir vermək lazımdır. Gecənin təşkilatçıları gecənin bədii hissəsində iştirak etmək üçün oxucu fəalları arasından ən bacarıqlılarını seçmək və onları bu işə həvəsləndirmək qayğısına qalmalı və həmçinin kitabxananın nəzdindəki ədəbiyyat dərnəyinin, rayonun ərazisində olan mədəniyyət evləri və ya klubların bədii öz fəaliyyət üzvlərinin qüvvəsindən geniş istifadə etməlidirlər. Ümumiyyətlə, oxucu konfransında olduğu kimi ədəbi-bədii gecənin hazırlanması və keçirilməsində oxucuların fəallığına arxalanmaq məqsədyönlüdür.

Ədəbi-bədii gecə, oxucu konfrasları və yaradıcılıq gecələri oxucular tərəfindən yaxşı qəbul edilir və onlar belə tədbirlərdə həvəslə iştirak edirlər.

Səməd Vurğunun həyat və yaradıcılıq yoluna daim nur saçan onun ilham pərisinə qanad verib əbədiyyətə, ölməzliyə doğru qaldıran ən başlıca mənəvi qüvvə vətənpərvərlik, vətən eşqi, el məhəbbəti, mənsub olduğu xalqın ən yaxşı ənənələrinə sədaqət hissi olmuşdur.

Bütün bunları nəzərə alaraq yaxşı olardı ki, kitabxanaçılar şairin həyat və yaradıcılığı ilə bağlı əyani və şifahi tədbirlərin keçirilməsində «Gənclik – təkamülün çarpan ürəyi, düşünən beynidir» deyən şairin gəncliklə bağlı mövzularında yazdığı əsərlərdən layiqincə və peşəkərcasına istifadə etməyi bacarsınlar. «Vətənpərvərlik və gənclik», «Milli vüqar və gənclik», «Məslək və gənclik», «Məhəbbət və gənclik» və s. mövzularla bağlı kitabxanalarda ədəbi-bədii gecələr, oxucu konfransları, sual-cavab gecələri, disputlar və sərgilər keçirmək məqsədəuyğun hesab olunur.

Kitabxanaçılara tövsiyə edirik ki, Səməd Vurğun irsini geniş oxucu kütləsinə çatdırılmasında əyani təbliğat vasitələrindən olan kitab sərgilərinə daha çox yer versinlər.

<span lang="TR" style="font-famil